2017-ci ilin yanvar-may aylarında muxtar respublikada bütün maliyyə mənbələri hesabına 385518 min manat həcmində investisiyadan istifadə edilmişdir ki, bu da bir il öncəki göstəricidən 1,5 faiz çoxdur. Tikinti-quraşdırma işlərində istifadə edilmiş investisiyanın həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,7 faiz artaraq 361724 min manat olmuşdur ki, bu da əsas kapitala yönəldilmiş investisiyanın 93,8 faizini təşkil edir.

2017-ci ilin yanvar-aprel aylarında muxtar respublikada tikinti sahəsində 10233 nəfər işçi çalışmışdır ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz çoxdur. Tikinti sahəsində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 2016-cı ilin müvafiq dövrünə nisbətən 1,4 faiz artaraq 447,9 manat olmuşdur.